



# XIX əsrin müdrik ozanı, el sənətkarı

*Aşıq poeziyasının, ümumən folklorun bilicisi sayılan böyük ustadımız, göyçəli Aşıq Ələsgərin adı, şəxsiyyəti, yaradıcılığı xalqımız üçün əziz və doğmadır. Bu doğmalığın səbəbi ondadır ki, Dədə Ələsgər XIX əsrin müdrik ozanı, el sənətkarı, böyük ustad xalqımızın əxlaqi, mənəvi dəyərlərini, adət-ənənələrini, sevincini, kədərini, ictimai dərdlərini çox böyük ustalıqla öz şeirlərində əks etdirmişdir.*



Saz, söz sərrafı şair Aşıq Ələsgər 1821-ci ilin baharında Göyçə mahalının Ağkilsə kəndində dünyaya göz açmış, kiçik yaşlarından saza-sözə böyük maraq göstərmişdir.

O, hər bir azərbaycanlının fəxr etdiyi, xalqımızın mədəniyyətinin bir hissəsinə çevrilmiş saz ustasıdır. Görkəmli aşıq sehr dolu şeirləri ilə şöhrət qazanmışdır. Belə sənətkarlara el arasında "Haqq aşığı" deyirlər. Ruhunda, cismində Dədə Qorqudu, Qurbanini, Qaracaoğlunu, Yunis Əmrəni, Sarı Aşığın ənənəsini daşıyan Dədə Ələsgər şirinliyi, doğmalığı, müdrikliyi ilə tanınıb.

Dədə Ələsgər aşıq poeziyasının sonuncu nəhəngidir. O, xalqımızın yaddaşına gözəllik vurğunu, həyat aşiqi, saflıq və səmimiyyət ustadı kimi əbədi həkk olunmuşdur.

Sinəsini özünə dəftər edən Ələsgər aşıq şeirinin demək olar ki, bütün formalarına müraciət etmiş, qoşma, gəraylı, təcnis, qıfılbənd, dodaqdəyməzlər yaratmış, deyişmələr iştirakçısı olmuşdur.

Hər kəlməsində canlı xalq dilini ən yüksək səviyyədə hiss etdirən göyçəli Aşıq Ələsgərin yaradıcı fərd kimi mifoloji düşüncə tərzinə qırılmaz tellərlə bağlı olub.

Ustad sənətkar "gözün təmənnası"ndan doğan eşqdə bir günahkarlıq məqamı görür və hər cür maddi təmənnadan uzaq olan ilahi eşqə can atır.

Dədə Ələsgər Azərbaycan dağlarını bütün fəsillərdə ən canlı mənzərələrini sözlə vəsf edib. Bu şeirləri oxuduqca, ulu, atlas geyimli dağlarımızın min bir rəngi göz önündə canlanır, xəyal qartal kimi qanadlanır, ürək pərvaz edir:

**Ağ xalat bürünər, zərnişan geyməz,**
**Heç kəsi küsdürüb, qəlbinə dəyməz,**
**Sərdara söz deməz, şaha baş əyməz,**
**Qüdrətdən səngərli, qalalı dağlar...**

Bu, sadəcə təsvir deyil, canlı obrazdır. Bu sətirlərdə böyük məhəbbət, iftixar və əzəmət vardır. Aşıq Ələsgər insanları, doğma təbiəti, bütün həyatı sevmişdir.

Azərbaycanın Xalq artisti, bəstəkar Tofiq Quliyevin Dədə Ələsgər barədə söylədikləri bir daha aşığın sözünün hansı estetik gücə malik olduğunu sübut edir: "Aşıq Ələsgər elə böyük dahilərdəndir ki, onun ilhamı sərhəd bilməyib. O, aşıq kimi ən gözəl aşıq olub. O, şair kimi ən gözəl şair olub. Hikmətli fikirlər ustadı kimi ən gözəl ustad olub. Aşıq Ələsgər həm də ən gözəl bəstəkar olub, ən gözəl ifaçı olub. Aşıq Ələsgər yaradıcılığında böyük bir hikmət vardır. Bu hikmət sənətkar təbiiliyindədir. O, bir metal qarışığı olmayan saf qızıl külçəsi kimidir. Mən Aşıq Ələsgərin sənət dühası barədə düşünəndə gözlərim önündə uca zirvəli dağ canlanır. Bu zirvə də əbədidir, ölməzdir, ondan suyunu götürən çaylarda. Şübhəsiz, mən "çaylar" dedikdə, Aşıq Ələsgərdən yadigar qalmış havaları, mahnıları, zərif şeir nümunələrini deyirəm".

Dədə Ələsgər təkcə ədəbiyyatımızın yox, incəsənətimizin də xəzinəsində qiymətli incidir.

2021-ci il fevralın 18-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.

Sərəncamda qeyd olunub ki, Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuna həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. Sənətkarın doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Aşıq Ələsgər çoxsaylı yetirmələrindən ibarət bir məktəb formalaşdırmış və gələcəyin məşhur şairlərinə qüvvətli təsir göstərmişdir.



Biz XIX əsrin müdrik ozanı və el sənətkarının həyat və yaradıcılığı ilə bağlı "Respublika" qəzetinin qonağı olan Aşıq Ələsgərin nəticəsi **"Dədə Ələsgər İctimai Birliyinin" sədri Xətai Ələsgərli** ilə həmsöhbət olduq. O, söhbət əsnasında maraqlı məqamlardan söz açaraq dedi:

- Aşıq Ələsgərin böyüklüyü xalq həyatını, insan taleyini sevinc və kədər hisslərini məharətlə ifadə etməsindədir. Dədə Ələsgər minillik ənənələr arxasında öz sözünü deyə bilmiş insanların işlətdiyi adi sözlərlə hamını heyrətdə qoyacaq bir poeziya ümmanı yaratmışdır.

Aşıq Ələsgər milli aşıq poeziyası tarixində şərəfli yer tutan sənətkardır. O, qeyri-adi fitri qabiliyyəti sayəsində yaratdığı müxtəlif səpkili, müxtəlif məzmunlu, bədii incilərində özünəməxsus boyalarla ifadə etdiyi fikirlərilə sənətin müqəddəs zirvəsinə yüksəlmişdir. Qüdrətli el sənətkarının yaratdığı əsərlər bu gün də aşıqlarımızın repertuarında geniş yer tutur, şənliklərin, məclislərin bəzəyinə çevrilir. Aşıq Ələsgərin şan-şöhrəti Azərbaycanın hüdudlarını çoxdan aşmışdır. Ustad sənətkarımızın adı və yaradıcılığı indi qardaş Türkiyədə, Gürcüstanda, Dağıstanda, eləcə də Orta Asiya respublikalarında da məşhurdur. Xalqımıza sazı və sözü ilə 80 ildən artıq ləyaqətlə xidmət edən Dədə Ələsgər yalnız qüdrətli şair-aşıq kimi yox, həm də xalqımızın qəlbində bir ocaq, pir, bir övliya olaraq heykəlləşmişdir.

Aşıq Ələsgərin atası Alməmməd işgüzar və halal zəhməti ilə dolanan, xalq arasında şair kimi tanınmış bir el ağsaqqalı idi. Ələsgər Aşıq Alının yanında beş ilə qədər şagirdlik etmişdir. Bu müddət ərzində özünün qeyri-adi istedadı sayəsində sənətinin sirlərini öyrənərək, müstəqil aşıqlıq etməyə başlamış, müxtəlif səpkili şeirləri ilə xalq arasında böyük şöhrət qazanmış, səsi-sorağı hər yana yayılmışdır. O, hafizəsi, dərin zəkası ilə həmişə öyrənməyə çalışmış, zəngin bilik əldə etmişdir. Aşıq Ələsgərin şeirlərində dahi şairlər Firdovsinin, Nizaminin, Nəsimin, Füzulinin, Hafizin adlarının çəkilməsi, "Onlar da yazdığı, ayə məndədi" deməsi təsadüfi sayılmamışdır. Aşıq dinləmə yolu ilə onların əsərlərindən çox şey öyrənmişdir. Onun bədahətən şeir söyləməsi hamını heyrətləndirmişdir. Deyilənə görə, Aşıq Ələsgər yeri gələndə sazı sinəsinə basar, şeiri elə oradaca bədahətən yaradar, yadında saxlar, sonradan şəyirdlərinə öyrədərmiş.

Aşıq Ələsgər böyük bir ailənin qayğısını çəkmiş, Bəşir, Əbdüləzim, Talıb adlı üç oğlu, Nigar, Xeyransa, Gülnisə, Bəsti, Əsli və Zümrüd adlı altı qız böyüdüb ərsəyə çatdırmış, ev-eşik sahibi etmişdir. Şagirdlərinin, qohumlarının dediyinə görə, Aşıq Ələsgər sazı solaxay çalarmış. Havaları çox məharətlə ifa edən, həmişə özünü ağır və təmkinli aparar, aşıq dastanlarını çox ustalıqla söyləyər, dinləyiciləri hadisələrin doğruluğuna inandırarmış. Ellər dolaşan Aşıq Ələsgər hamı tərəfindən sevilir, hər yerdə hörmətlə qarşılanırdı. Şeir-sənət xiridarları onunla dostluq etməyi, evində qonaq saxlamağı özlərinə şərəf sayırdılar.

Görkəmli şair-aşığın çox böyük sənətkar olduğunu hələ sağlığında ikən dövrünün ziyalıları, ustad aşıqları dönə-dönə sübut etmişlər. Fars, türk və ərəb dillərində mükəmməl təhsil görmüş, klassik ədəbiyyatı və aşıq poeziyasını kamil bilən Mirzə Bəylər Ələsgəri Şərqin böyük şairi Hafiz Şirazi ilə bərabər tutmuş, yaradıcılığını yüksək qiymətləndirmişdir.

Aşıq Ələsgər Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Şərurda, Dərələyəzdə, Borçalıda, Qazaxda, Şəmkirdə, Şınıxda və başqa yerlərdə saysız-hesabsız məclislər keçirmişdir.

1849-cu ildə Tiflisin 40 kilometrliyindəki Dəmirçi Həsənli kəndində Aşıq Ələsgəri ilk dəfə dinləyən Polonski başqa bir kənddəki görüşdə onun "Əsli və Kərəm" dastanını danışmasını gördükdən sonra yazır: "Ələsgər yanıqlı-yanıqlı oxuyurdu, camaat onu böyük təntənə və məftunluqla dinləyirdi. Mən dili bilməsəm də, havaların ahəngindən yaxşı başa düşürdüm". Nəğmələri mənə tərcümə etdilər.

Aşıq Ələsgərin yaradıcılığında aşıq şeiri şəkillərində yazan klassik şairlərimizin, xüsusən də Vaqif və Zakir şeirlərinin təsiri aydın hiss edilməkdədir.

O, öz elini, Göyçə gölünün nəğməli sahillərini, başı buludlardan nəm çəkən "Çalmalı" dağının romantik mənzərələrini, bütünlükdə, "Qafqaz elini" necə dolandığını ustalıqla, poetik ilhamla qələmə almışdır.

Dədə Ələsgər ömrünün son çağlarında söylədiyi bir şeir xüsusilə cəlb edir:

**Səksəni-doxsanı keçibdi yaşım,**
**Əzrail həmdəmim, məzar yoldaşım,**
**Gor deyə tərpənir bəlalı başım,**
**Daha köç təbili çal, qoca baxtım.**

1918-1919-cu illərdə Qərbi Azərbaycanda erməni vandallarının türklərə qarşı törətdiyi qırğın nəticəsində Göyçə mahalının var-yoxu talanmış, əhali öz dədə-baba yurdunu tərk edib başqa yerlərə köçməyə məcbur olmuşdu. İki ilə qədər Kəlbəcərin Yanşaq kəndində yaşayan Aşıq Ələsgər sonra Tərtərə köçmüş, bir neçə ay orada qalmışdır. Lakin onun ürəyi Göyçə eşqi ilə döyünürdü. Ustad aşıq tezliklə hər qarışında ayaq izləri qalmış Göyçənin Ağkilsə kəndinə dönmüş, yenidən öz şeirləri ilə insanların qəlbinə yol tapmışdır.

1972-ci ildə Dədə Ələsgərin anadan olmasının 150 illiyi, 1998-ci ildə isə 175 illiyi Azərbaycanın hər yerində qeyd olunmuş, Azərbaycan Elmlər Akademiyası tərəfindən dahi şairin əsərlərinin ikicildlik elmi nəşri hazırlanmış və çap edilmişdir.

Qeyd etmək lazımdır ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Moskvada Aşıq Ələsgərin yubileyi keçirilmiş, ulu Göyçənin Ağkilsə kəndində korifey sənətkarın büstü qoyulmuş, dövlət səviyyəsində tədbir keçirilmişdir. Həmin tədbirdə Basarkeçər Rayon İcraiyyə Komitəsinin sədri Zərbəli Qurbanov şairin həyatı və yaradıcılığı barədə çıxış etmişdir.

Bu günlərdə Bakının Nərimanov rayonunun ərazisində el sənətkarı, Dədə Ələsgərin abidəsinin açılışı oldu. Açılışda Prezident cənab İlham Əliyev çıxış edərək dedi: "Bu gün şəhərimizdə çox əlamətdar bir gündür. Deyə bilərəm ki, ölkə üzrə çox əlamətdar bir gündür. Bakının mərkəzində Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin abidəsi açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, doğrudan da çox gözəl hadisədir. Üç il əvvəl Aşıq Ələsgərin adının əbədiləşdirilməsi üçün mən iki Sərəncam imzalamışam. Bir sərəncam əsasında Aşıq Ələsgərin 200 illik yubileyi dövlət səviyyəsində qeyd edildi. İkinci Sərəncam əsasında onun abidəsinin ucaldılması məsələsi nəzərdə tutulmuşdu. Bu gün şəhərimizin bu gözəl yerində, deyə bilərəm ki, şəhərimizin mərkəzində, gözəl parkda Aşıq Ələsgərin abidəsi ucaldılıb. Aşıq Ələsgər ömür boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşamış, yaratmışdır...".

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**